# "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472 (Cild I); 2024, № 3, maddə 250, № 4, maddə 365, № 11, maddə 1181, № 12 (II kitab), maddə 1331) aşağıdakı dəyişikliklər edilsin:

1. 52-ci maddənin 4-cü hissəsində "Dövlət ekoloji ekspertizasının obyektləri barədə ekoloji" sözləri "Ekoloji" sözü ilə əvəz edilsin.

2. 57-ci maddə üzrə:

2.1. adında "Dövlət ekoloji ekspertizasının" sözləri "Ekoloji ekspertiza" sözləri ilə əvəz edilsin;

2.2. 6-cı hissədə "Dövlət ekoloji ekspertizasının obyektləri barədə ekspert" sözləri "Ekoloji ekspertiza" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2025-ci il*

Azərbaycan.- 2025.- 18 aprel (№ 76).- S.2.